Tarix və onun problemləri, №4 2009

İLQAR İBRAHIMLI
*Bakı Dövlət Universitetinin aspirantı*

# BÖYÜK BRITANIYA VƏ FRANSANIN TIMSALINDA AZƏRBAYCAN - QƏRBI AVROPA MƏDƏNI ƏLAQƏLƏRINƏ BIR BAXIŞ (1997-2005-ci illər)

1997-ci ildən başlayaraq Azərbaycanla Qərbi Avropa ölkələri arasında mədəni əlaqələr intensivləşdi. Azərbaycan mədəniyyət sahəsi nümayəndələri Qərbi Avropada, avropalılar isə Azərbaycanda mədəni-humanitar tədbirlərin sayını artırdılar və keyfiyyətini yüksəltdilər. Azərbaycan-Qərbi Avropa mədəni əlaqələrində iştirak edən sosial təbəqələrin əhatəsi genişləndi. Əgər münasibətlərin ilk dövründə mədəni əlaqələrdə əsasən mütəxəssislər iştirak edirdilərsə, ikinci mərhələdə müxtəlif sosial təbəqələr bu fəaliyyət sahəsinə cəlb olundular. Artıq Azərbaycandan Qərbi Avropaya təhsil arxasınca gedənlərin sayı artırdı. Eyni zamanda mədəni münasibətlərdə qeyri-hökumət təşkilatlarının rolu yüksəldi. Müxtəlif layihələr həyata keçirildi. Bəzi hallarda müəyyən qüvvələr Azərbaycanda Avropa meyllərini nəzərə alaraq missioner fəaliyyətlərinə də başladılar. Əlbəttə Azərbaycan-Qərbi Avropa mədəni-humanitar münasibətlərində belə hallar arzuolunmazdı. Azərbaycan dövlətinin müvafiq qurumlarının səyləri nəticəsində münasibətlərə kölgə düşürə biləcək bu maneələr aradan qaldırıldı. Azərbaycan-Qərbi Avropa mədəni münasibətləri genişlənmə mərhələsinə daxil oldu. Təməli 1990-cı illərin birinci yarısında qoyulan müasir Azərbaycan-Qərbi Avropa mədəni əlaqələrinin sahələri artdı.

Mədəniyyət sahəsində münasibətlərin genişlənmə mərhələsində öncə də qeyd edildiyi kimi qeyri-hökumət təşkilatlarının imkanları çoxaldı. Həmçinin müştərək cəmiyyətlərin yaranması mədəni-humanitar münasibətlərdə irəliləyişlərə səbəb oldu. Belə qurumlarda dövlət xadimlərinin iştirakı da müsbət dəyərləndirilə biləcək amillərdən idi.

Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında mədəniyyət və təhsil sahəsində əməkdaşlığın inkişafına xidmət edən qurumlardan biri də Britaniya-Azərbaycan Cəmiyyəti idi. Bu cəmiyyət 1997-ci il noyabrın 24-də təsis edilmişdi. Cəmiyyətin təsis konfransında çıxış edən, Böyük Britaniyanın keçmiş energetika naziri Tim Eqqar təşkilatın sədri kimi bəyan etmişdi ki, iki ölkə arasında mədəni və təhsil sahəsində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Eyni zamanda o, bildirmişdir ki, cəmiyyət Azərbaycanın mövqeyini, onun qayğılarını İngiltərə cəmiyyətinə, Britaniya hökumətinə çatdırmaqla məşğul olacaq (1, s. 420-421).

Britaniya-Azərbaycan Cəmiyyətinin yaradılmasında Azərbaycan Respublikasının Britaniyadakı səfirliyinin mühüm rolu olmuşdu. 40-dan çox hüquqi şəxsi özündə birləşdirən Britaniya-Azərbaycan Cəmiyətinin ilk rəsmi toplantısı 1998-ci ilin yanvar ayının 13-də keçirilmişdi. Həmin ilin aprel ayının 29-30-da Londonda Britaniya-Azərbaycan Cəmiyyətinin və Azərbaycan səfirliyinin təşəbbüsü ilə keçirilmiş mədəniyyət tədbirində ölkəmizin tanınmış incəsənət xadimləri konsert proqramı ilə çıxış etdilər.

Azərbaycan dövlətinin müvafiq diplomatik qurumları, xüsusi ilə səfirliklər Azərbaycan diaspor təşkilatlarının fəaliyyətlərinin təmərküzləşməsinə böyük önəm vermiş və bu sahədə xüsusi addımlar atmışlar. 1999-cu il dekabrın 4-də Azərbaycanın Londondakı səfirliyində Britaniya-Azərbaycan Cəmiyyəti, Britaniya-Azərbaycan Cəmiyyəti və Azərbaycan Türkləri Cəmiyyəti nümayəndələrinin görüşü keçirildi. Qərara alındı ki, Britaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri arasındakı əlaqələrin inkişaf

etdirilməsi, hökumət strukturları ilə lazimi kontaktların qurulması üçün onların Koordinasiya Bürosu yaradılsın.

Azərbaycanı təmsil edən cəmiyyətlərin mədəni-humanitar fəaliyyətlərində əsas istiqamət Azərbaycan xalqının başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması idi. Bu sahədə ən təsirli vasitələr kitab və braşürlərin nəşri, filmlərin nümayişi və sair tədbirlərdi. Britaniya-Azərbaycan Cəmiyyəti də Azərbaycan Türkləri Cəmiyyəti ilə birlikdə ingilis dilində "Xocalı qırğını 1992" adlı məcmuə çap etdirərək Londonda akkreditə olunan 55 səfirlik, Britaniya-Azərbaycan parlament qrupu,digər siyasi və qeyri-hökumət təşkilatlarına paylamışdı. Britaniya-Azərbaycan Cəmiyyətinin mətbuat orqanı olan "Azərbaycan Tayms" məcmuəsi də xüsusi əhəmiyyət kəsb edir. Burada ikitərəfli münasibətlərə dair mövzular, eyni zamanda respublikamızdakı siyasi-iqtisadi, sosial-mədəni həyatını işıqlandıran məqalələr dərc edilir.

Mədəni münasibətlərin genişləndirilməsində və inkişafında ən hərəkətli təbəqə gənclər idi. Gənclər potensiallarını həyata keçirərək cəmiyyətlərin yaxınlaşmasında böyük rol oynaya bilərdilər. Azərbaycan gənclərinin Böyük Britaniyada təhsil alanlarının sayının artması dövlətin və ictimai qurumların da buna diqqətini cəm edirdi. 2000-ci ilin mart ayının 2-də Bakıda iki ölkə arasında gənclik, elmi-mədəni, dostluq münasibətlərinin genişlənməsinə köməklik göstərmək məqsədilə Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyətini əsası qoyuldu. Az sonra Cəmiyyət tərəfindən 2000-ci il aprelin 27-də "Azərbaycan-Böyük Britaniya yeni minilliyə doğru" mövzusundaelmi-praktik konfrans, mayın 23-də isə "Pumanlı Albion" adlı seminar keçirildi. Qeyd etmək lazımdır ki, 2001-ci ilin aprelindən Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyəti İngiltərədə fəaliyyət göstərən Britaniya-Azərbaycan Cəmiyyətinin fəxri üzvü seçilmişdir.

İkitərəfli mədəni və humanitar əlaqələrin qurulması və inkişaf etdirilməsində Böyük Britaniyada yaşayan soydaşlarımızın əhəmiyyətli rolu vardır. Hazırda bu ölkədə 30 min nəfərdən çox azərbaycanlı yaşayır və əksəriyyəti London, Mançester və Edinburq şəhərlərində məskunlaşmışdır. Böyük Britaniyda soydaşlarımızın cəmləşdiyi 6 diaspora təşkilatı fəaliyyət göstərir (2).

2000-ci ildə yaradılan "Vətən" Cəmiyyəti Azərbaycan və Böyük Britaniya arasında mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində mühüm rolu olan təşkilatlardan sayılır. Cəmiyyət eyni zamanda Britaniya ictimiyyətinin respublikamız haqqında bilgilərinin artırılması və onunla bağlı həqiqətlərin düzgün çatdırılması məqsədilə müxtəlif mühazirələr təşkil edir, nəşrlər hazırlayır. 2001-ci ilin noyabrında və 2002-ci ilin fevralında "Vətən" Cəmiyyəti tərəfindən London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində Azərbaycanlı qaçqınların və məcburi köçkünlərin vəziyyətinə, Xocalı faciəsinə həsr olunmuş tədbirlər keçirilmiş, məruzələr təşkil olunmuşdu (3).

Göründüyü kimi, müstəqillik əldə edildikdən sonra Azərbaycan-Böyük Britaniya mədəni, əsasən də, elmi, təhsil, incəsənət və humanitar əlaqələri də hər iki xalqın maraqlarına uyğun olaraq inkişaf etmişdir. Son illərdə Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında elm, təhsil, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq əlaqələri daha da genişləndirilməkdədir. Əlbəttə mədəni əlaqələrin genişlənməsinə təsir edən amillər sırasına iqtisadi-siyasi münasibətlərin güclənməsi də vardır.

Azərbaycanın Fransa ilə mədəni əlaqələri də mühüm əhəmiyyət kəsb etmişdi.

2001-ci ilə kimi artıq azərbaycanlıların fransız dilini öyrənməsi məqsədilə Fransa səfirliyinin təşəbbüsü ilə iki lüğət çap olunmuşdu. Eyni zamanda yeni dərslik hazırlanmışdı. Həmin ildə həmçinin fransa səfirliyinin maliyyə dəstəyi ilə buraxılmış "Gənc Azərbaycan ifaçıları" kompakt diskinin təqdimat mərasimi olmuşdur. Qeyd edək ki, diskə "Şirvan" ansamblının ifasında muğamlar daxil edilmişdir(4, s. 6).

Fransa ilə ikitərəfli mədəni əlaqələrin inkişafında Azərbaycanın Mədəniyyət naziri P.Bülbüloğlunun bu ölkəyə 2003-cü il 25-28 mart tarixli səfəri önəmli yer tutur. Səfər çərçivəsində P. Bülbüloğlu Fransanın hökumət nümayəndələri ilə iki ölkə arasında mövcud mədəni əlaqələrin durumu və gələcək perspektivləri ilə bağlı ətraflı müzakirələr aparmışdır. Səfər nəticəsində məlum olmuşdur ki, hər iki tərəf sözügedən sahədə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində və genişləndirilməsində maraqlıdır.

Azərbaycan-Fransa mədəni əlaqələrinin genişləndirilməsi perspektivləri həmin ilin iyulun 31-də Azərbaycanın Mədəniyyət naziri P. Bülbüloğlu ilə Fransanın ölkəmizdəki səfiri xanım Ş. Puarenın görüşündə bir daha müzakirə olunmuşdur. Görüşdə eyni zamanda Fransada Azərbaycan Rəssamlarının əsərlərindən ibarət sərginin təşkil edilməsi, gənc musiqiçilərimizin məşhur "Berlioz" festivalında, həmçinin ölkəmizin nümayəndələrinin 2004-cü ildə Paris yaxınlığında keçiriləcək "İmic" sərgisində iştirakı məsələlərinə də toxunulmuşdur (5).

2004-cü ilin sentyabr ayında isə Fransa Senatının Orangeri salonunda müasir Azərbaycan rəssamlarının əsərlərindən ibarət 20 günlük sərgi keçirilmişdir. Hətta prezident İlham Əliyev sentyabr ayının 8-də sərginin açılış mərasimində iştirak etmişdir (6). 2004-cü ildə Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Fransanın ölkəmizdəki səfirliyi "Fransanın incəsənəti ilə tanışlıq" mövzusunda xüsusi proqram da tərtib etmişdir. Mədəniyyət nazirinin müavini S. Məmmədəliyeva və muzey Muzey mərkəzinin direktoru Liana Vəzirova proqrama uyğun olaraq həmin ilin iyunun 21-dən 28- dək Parisə səfər etmiş, faydalı görüşlər keçirmişlər (7, s. 8). Belə ki, onlar Parisdəki Tokio incəsənət muzeyinin iş təcrübəsi ilə yaxından tanış olmuş, əməkdaşlar ilə bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparmışdılar. Azərbaycan nümayəndə heyəti həmçinin Parisdəki musiqi şəhərciyində oldu. Qeyd edək ki, həmin muzeydə xalqımızın qədim musiqi alətlərindən olan tar, kamança, saz və qavaldan ibarət xüsusi guşə də yaradılmışdır.

Səfərin sonunda Azərbaycan nümayəndə heyəti Fransa muzeylərinin baş direktorları ilə görüş keçirtdi. Görüşdə respublikamızda muzey menecmenti sahəsinin yaradılması və inkişafı üçün Fransa tərəfinin yardımı, bu sahə ilə bağlı konfrans və seminarların keçirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Görüşdə bu sahəni öyrənmək məqsədilə Fransa dövlətinin vəsaiti hesabına bir neçə azərbaycanlı ekspertin altı ayliq və ya bir illik kurslarda iştirakı qərara alındı.

2005-ci il aprelin 11-də Bakıda məşhur yazıçı, "Koroğlu" dastanını 1853-cü ildə fransız dilinə tərcümə etmiş Jorj Sand adına Fransa Mədəniyyət Mərkəzinin açılış mərasimi oldu (8). Açılış mərasimində Fransa Senatının Fransa-Qafqaz qrupunun rəhbəri, senator Amburaz Düpon Azərbaycanın mədəniyyət naziri p. Bülbül oğlu və digər rəsmi şəxslər iştirak etmişdir.

Son illərdə də Azərbaycan Respublikası ilə Fransa arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq əlaqələri daha da inkişaf etdirilməkdədir. Fransa ilə mədəni ünsiyyətin dərinləşməsi isə bilavasitə Azərbaycanın dövlət maraqlarına uyğundur. Azərbaycan mədəniyyətinin Fransada təbliği antiazərbaycan təbliğatına güclü zərbədir. Eyni zamanda Azərbaycanda Fransız mədəniyyəti və dilinin təbliği də zəruridir. Çünki Avropanın nüvə dövləti olan bu ölkənin mədəniyyəti ilə tanış olan kadrların çoxluğu Azərbaycan xarici siyasətinin Fransa istiqamətində uğur koifisenti ilə düz mütənasibdir.

### *ƏDƏBIYYAT:*

1. Azərbaycan- Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq. 1991-2001. Tarixi xronika. İ. Mirzəbəyli. Nəşriyyat: Bakı, 2001. 449 s.
2. http://mfa.gov.az/images/stories/Countries/britaniya/01.pdf
3. "Azərbaycan" qəzeti, 28 fevral 2008

4. Sultanova P. Azərbaycan-Fransa mədəni əməkdaşlığı genişlənir. "Azərbaycan" qəzeti, 2001, 7 iyul.
5. "Azərbaycan" qəzeti, 31 iyul 2003.
6. http://mfa.gov.az/images/stories/Countries/fransa/01.pdf
7. Əliyev Ə. Fransa ilə Azərbaycan arasında mədəni əlaqələr genişlənir / "Azərbaycan" qəzeti, 2004, 1 iyul.
8. "Xalq qəzeti", 12 aprel 2005.

**И. Ш. ИБРАГИМЛИ**
*Аспирант Бакинского Государственного Университета*

## ВЗГЛЯД НА КУЛЬТУРНЫЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ЗАПАДНОЙ ЕВРОПОЙ НА ПРИМЕРЕ ВЕЛИКОБРИТАНИИ И ФРАНЦИИ (1997 - 2005)

Данная статья посвящена значительной составной части международных культурных связей, созданных Азербайджанской Республикой в системе международных отношений после обретения независимости. В ней исследуется этап развития в установлении культурных связей со странами Западной Европы после того, как Азербайджан обрел независимость. Статья исследует изменения, наблюдаемые в этих отношениях, автор передает свое отношение к сути этих изменений. Статья придает особое значение роли, которую сыграли государственные органы, молодежь и неправительственные организации в интенсификации культурных связей Азербайджана со странами Западной Европы. В данной статье, наряду с историческим исследованием, автор выражает свое отношение к событиям и процессам. Для написания данной статьи были использованы соответствующие литературные источники.

**I. SH. IBRAHIMLI**
*Post-graduate of Baku State University*

## A VIEW ON THE CULTURAL RELATIONS OF AZERBAIJAN – WESTERN EUROPE ON THE EXAMPLE OF GREAT BRITAIN AND FRANCE (1997 - 2005)

The article is devoted to the significant part of international cultural relations built by the Azerbaijan Republic in the system of international relations, after gaining independence. It researches the development stage of the establishment of cultural relations with the states of Western Europe, after Azerbaijan achieved its independence. The article analyses the changes observed in the stated relations, and the author expresses his attitude to the essence of these changes. The article attaches special importance to the role played by state bodies, youth and NGOs in the intensification of cultural relations between Azerbaijan and Western European states. Together with the historical research, the author expresses his own attitude to the events and processes. The corresponding resource base was used while preparing the article.

***Rəyçilər: dos.F.Q.Yusifzadə, t.e.d.M.B.Fətəliyev.***
***BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının 02 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***